**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"13" 02 2026-cı il

# FƏNN SILLABUSU
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 6004004-İqtisadiyyat A,B, 6008008-Turizm işinin təşkili A,B
**Fakültə:** İqtisadiyyat və idarəetmə
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** S/f.(Multikulturalizmə giriş) ARTN-nin 07.01.2015-ci il tarixli 16 №-li əmri ilə təsdiq edilmişdir.
**Kodu:** HF-B04.1
**Tədris ili:** II (2025-2026)
**Semestr:** IV (yaz)
**Tədris yükü:**. Cəmi: 90. Auditoriya yükü: 30 saat (15 saat mühazirə, 15 saat seminar)
**AKTS üzrə kredit:** 3 kredit
**Tədris forması:** əyani
**Tədrisin dili:** Azərbaycan dili
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı: Mühazirə müəlimi:** dos.Zaur Ibrahimxəlil oğlu Məmmədov,**Seminar müəllimi:** m.Namiq Ağayev Adınalı olğu
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov, 22
**Məsləhət günləri və saatı:** V gün, saat 16.00-17.00
**E-mail ünvanı:** mammadovzaur@mail.ru
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas:**

1. Mir-Bağırzadə S. A.. Multikulturalizmə giriş. Dərslik. Bakı 2021
2. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı 2019
3. Hacıyev A.N., Cəf ərova E.H., Məmmədov İ.M.. Multikulturalizmə giriş. Dərs vəsaiti MDU 2018
4. Mətbuatda multikulturalizm: Azərbaycan və dünya təcrübəsi. Niyaz Niftiyev. Bakı 2017
5. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Niyaz Niftiyev. Bakı 2015
6. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi. Multukulturalizn Azərbaycanda həyat tərzidir. Bakı, 2016
7. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi. Tolerantlıq. Bakı-2015
8. Abdulla K., Mifdən yazıya və yaxud Gizli Dədə Qorqud. Bakı, Mütərcim, 2009
9. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Qəmərşah Cavadov. Bakı 2000
10. Kuropyatnik A.İ. Multikulturalizm. Problemı soçialnoy stabilnosti polietniçeskix obşestv. SPb., 2000, qlava 1.

**Əlavə:**

11. Məmmədov Zaur. Bayramov Müşviq "Mədəniyyətşünaslıq" dərs vəsaiti Bakı 2022
12. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004
13. Aslanova R. İslam və mədəniyyət. Bakı, 2002
14. Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti. Bakı, 2007


**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni vaxta başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**
Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı əlaqələrini dərinləşdirən qloballaşma prosesi istər ölkədaxili, istər də beynəlxalq müstəvidə multikulturalizm siyasətinin əhəmiyyətini artırır. Belə ki, etnik-mədəni müxtəlifliyin genişləndiyi şəraitdə etnik, dini və mədəni tolerantlığın artmasına zəruri zəmin yaradan multikulturalizm siyasətinin alternativi olmaması açıq şəkildə özünü biruzə verir. Lakin multikulturalizm siyasətinin zəruriliyinin artdığı bir dövrdə bəzi dövlətlərdə bu və ya digər

CamScanner ilə skan edilib

səbəblərdən həmin siyasətdən uzaqlaşmaq meylləri yaranmaqdadır. Multikulturalizmin bir sıra dünya dövlətlərində iflasa uğradığı bir şəraitdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti bəyan etmişdir. Azərbaycan Respublikasının bu siyasəti uğurla həyata keçirilməkdədir və bu sahədə ölkənin əldə etdiyi nailiyyətlər beynəlxalq səviyyələrdə də etiraf olunur.

"Multikulturalizmə giriş" - fənlərarası bir kursdur. Bu fənn fəlsəfə, politologiya, tarix, sosiologiya, kulturologiya və digər humanitar fənlərin bir çox nəzəri müddəalarından istifadə edir. Kursun əsas məqsədi bakalavr pilbsində təlsil alan tələbələrə multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, həyat tərzi kimi təqdim etmək, müasir dövrdə onun əhəmiyyətini göstərmək, dünya dövlətlərinin, o cümlədən Azərbaycanın multikulturalizm sahəsində tarixi təcrübəsini tədqiq etmək və tələbələr arasında tolerantlıq ənənələrini möhkəmləndirmək və inkişaf etdirməkdir.

Multikulturalizmə giriş fənni bakalavr pilləsində seçmə fənn kimi tədris olunur.

**VII Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17 dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |

CamScanner ilə skan edilib

| | | |
|---|---|---|
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim planı:** 15 saat mühazirə, 15 saat seminar. **Cəmi 30 saat.**

| № | Keçirilən mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1 | **Mövzu 1. "Multikulturalizmə giriş" fənninin predmeti və əhəmiyyəti**<br>**Plan:**<br>1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi<br>2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi. Onun digər ictimai elmlərlə münasibəti<br>3. "Multikulturalizmə giriş" fənninin metodları<br>4. "Multikulturalizmə giriş" fənninin əhəmiyyəti<br>5. Multikulturalizmə liberalizm yanaşması və onun nümayəndələri<br>6.Multikulturalizmə kommunitarizm yanaşması nümayəndələri<br>**Mənbə:** [1;2;3] | 2 | 2 | |
| 2 | **Mövzu 2. Dini müxtəliflik. Dinin mahiyyəti və onun təzahür formalari**<br>**Plan:**<br>1. Dinin mahiyyəti və onun meydana gəlməsinə dair nəzəriyyələr<br>2. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi<br>3.Müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələr<br>4.Yeni dini hərəkatlar<br>5.Dini radikalizm və onunla mübarizə yolları<br>6.Müasir Azərbaycanda dövlət–din münasibətləri<br>**Mənbə:**[1;3;5;10] | 2 | 2 | |
| 3 | **Mövzu 3. Dünya dinləri**<br>***Plan:*** 1. Buddizm<br>2. Xristianlıq<br>3. İslam tarixi<br>**Mənbə:** [1;2;10;] | 2 | 2 | |
| 4 | **Mövzu 4. Milli dinlər**<br>***Plan:*** 1.Zərdüştilik tarixi<br>2.Yəhudilik<br>3.Uzaq Şərq dinləri<br>4. Cənubi Asiya dinləri<br>**Mənbə:** [2;3;7;8;9] | 2 | 2 | |
| 5 | **Mövzu 5. Etnik müxtəlifikvə milli ideya**<br>***Plan:*** 1. Etnik birliklər və onların təkamülü<br>2.Etnik kimlik və milli müəyyənlik problemi<br>3. Etnik dəyərlər və milli mentalitet<br>4. Milli şüur və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu<br>**Mənbə:** [1;4;7;10] | 2 | 2 | |
| 6 | **Mövzu 6.Multikulturalizm etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin səmərəli siyasət modeli kimi**<br>***Plan:***1. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinəmünasibətdə mümkün siyasət modelləri:assimilyasiya, izolyasiya, aparteid və | 2 | 2 | |

CamScanner ilə skan edilib

| | | | | |
|---|---|---|---|---|
| | multikulturalizm<br>2. Müasir dövrdə ictimai inkişafda mədəniyyətin aparıcı rolu və multikulturalizm<br>3. Tolerantlıq, multikulturalizm və interkulturalizm<br>4. Multikulturalizmin cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafina təsiri<br>5.Etnik-mədəni müxtəlifliyin qorunmasi və multikulturalizm siyasətinin ölçülməsi. miqrant inteqrasiya siyasəti indeksi (mipex)<br>**Mənbə:** [2;4;10] | | | |
| 7 | **Mövzu 7. Müasir dövrdə qərb ölkələrində etnik-mədəni müxtəliflik və onun tənzimlənməsi**<br>**Plan:**<br>1.Müasir dövrdə Qərb ölkələrindəmultikulturalizmin vəziyyəti<br>2.Qərb ölkələrində etnik–mədəni müxtəlifliyə immiqrasiya prosesinin təsiri<br>3. Qərb ölkələrində dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formaları<br>4. Qərb ölkələrində etnik–mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi Multikulturalizmin Kanada modeli<br>**Mənbə:** [2;7;9;10] | 2 | 2 | |
| 8 | **Mövzu 8. Müasir dövrdə azərbaycandamultikulturalizm**<br>**Plan:**1. Azərbaycanda multikulturalizm siyasəti modelinin formalaşmasını şərtləndirən obyektiv və subyektiv səbəblər<br>2. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri<br>3.Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı<br>**Mənbə:** [2;4;6;10] | 1 | 1 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

- Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
- Öyrənən tanış olur:
- Multikulturalizmin mahiyyəti, yaranmasının səbəbləri, əhəmiyyəti, dünya, o cümlədən Azərbaycanın ictim fikir tarixində formalaşmış tolerantlıq, multikulturalizm ideyaları və mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə;
- Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində dünya dövlətlərinin mütərəqqi təcrübəsi ilə;
- Multikulturalizm ilə sosial-iqtisadi inkişafın, daxili və xarici siyasətin qarşılıqlı münasibətini anlayacaqlar.
- Azərbaycanda multikulturalizmin inkişafında Ümummilli lider Heydər Əliyevin rolunu dərk edəcəklər.
- Multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini, üstünlüklərini qavrayacaqlar.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Multikulturalizmin mahiyyəti, yaranmasının səbəbləri, mədəniyyətin unikal tərkib hissəsi kimi əhəmiyyətini bilir;
- Azərbaycanda multikulturalizmin inkişafında ümummilli lider H.Əliyevin rolunu bilir;
- Dünya, o cümlədən Azərbaycan ictimai-fəlsəfi fikir tarixində formalaşmış tolerantlıq, multikulturalizm ideyaları və multikulturalizmin nəzəri-ideoloji əsaslarını bilir;
- Cəmiyyətdəki dini və etnik-milli müxtəlifliyin tənzimlənməsində multikulturalizmin əhəmiyyətini bilir; Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində dünya dövlətlərinin mütərəqqi təcrübəsini bilir;
- Multikulturalizm ilə sosial-iqtisadi inkişafın, xarici siyasətin qarşılıqlı münasibətini bacarır;
- Qərb ölkələrində etnik-mədəni müxtəlifliyin tənzimlənməsi xüsusiyyətlərini bacarır multikulturalizmin Azərbaycan və dünya modelinin mahiyyətini, xüsusiyyətlərini, mənbələrini və üstünlüklərini bilir;
- Müasir dövrdə Azərbaycan dövlətinin, Heydər Əliyev Fondunun multikulturalizm sahəsində gördüyü konkret işləri bilir.

CamScanner ilə skan edilib

XIII. Tələbələri fənn haqqında fikrinin öyrənilməsi:

## XIV. Kollekvium sualları:

### I Kollekvium sualları:

1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi
2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi
3. "Multikulturalizmə giriş" fənninin digər ictimai elmlərlə münasibəti
4. "Multikulturalizmə giriş" fənninin əhəmiyyəti
5. Zəif və güclü multikulturalizm
6. Dinin mahiyyəti və onun meydana gəlməsi haqqında fikirlər
7. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi
8. Yeni dini hərəkatlar (Bəhailik, Yahovanın şahidləri)
9. Dini radikalizm və onunla mübarizə yolları
10. Müasir Azərbaycanda dövlət–din münasibətləri

### II Kollokvium sualları:

1. Buddizm
2. Xristianlıq
3. İslam Tarixi
4. Azərbaycanda İslam
5. Zərdüştilik
6. Yəhudilik
7. Uzaq Şərq dinləri: Konfutsiçilik, Daosizm
8. Cənubi Asiya dinləri: Hinduizm, Caynizm
9. Etnik birliklər və onların təkamülü
10. Etnik kimlik, etnik dəyərlər və milli mentalitet

## XV. İmtahan sualları:

1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi
2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi
3. "Multikulturalizmə giriş" fənninin digər ictimai elmlərlə münasibəti
4. "Multikulturalizmə giriş" fənninin əhəmiyyəti
5. Zəif və güclü multikulturalizm
6. Dinin mahiyyəti və onun meydana gəlməsi haqqında fikirlər
7. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi
8. Yeni dini hərəkatlar (Bəhailik, Yahovanın şahidləri)
9. Dini radikalizm və onunla mübarizə yolları
10. Müasir Azərbaycanda dövlət–din münasibətləri
11. Buddizm
12. Xristianlıq
13. İslam Tarixi
14. Azərbaycanda İslam
15. Zərdüştilik
16. Yəhudilik
17. Uzaq Şərq dinləri: Konfutsiçilik, Daosizm
18. Cənubi Asiya dinləri: Hinduizm, Caynizm
19. Etnik birliklər və onların təkamülü
20. Etnik kimlik, etnik dəyərlər və milli mentalitet
21. Milli şüur, milli ideya və ideologiya
22. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə siyasət modelləri:assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm
23. Tolerantlıq, multikulturalizm və interkulturalizm
24. Multikulturalizm dövlət siyasətinin tərkib hissəsi kimi
25. Müasir dövrdə Qərb ölkələrində multikulturalizm
26. Qərb ölkələrində etnik–mədəni müxtəlifliyə immiqrasiya prosesinin təsiri
27. Dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formaları
28. Multikulturalizmin Avstraliya modeli

CamScanner ilə skan edilib

29. Multikulturalizmin Kanada modeli
30. Multikulturalizmin ABŞ modeli
31. Azərbaycanda multikulturalizm siyasəti modelinin formalaşması
32. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri
33. Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı
34. Heydər Əliyev Azərbaycan multikulturalizminin banisi kimi
35. Azərbaycan multikulturalizminin inkişafında İlham Əliyevin rolu

**"S/f Multikulturalizmə giriş"** fənninin sillabus **6004004-İqtisadiyyat, 6008008-Turizm işinin təşkili** ixtisaslarının təhsil proqramı, tədris planı və ARTN-nin 07.01.2015-ci il tarixli 16 №-li əmri ilə təsdiq edilmiş fənn proqramı əsasında tertib edilmişdir.
Sillabus **"Tarix və onun tədrisi metodikası"** kafedrasında müzakirə edilərək təsdiq edilmişdir (13 fevral 2026-cı il, protokol № 6).

**Mühazirə müəllimi:** ____________ **dos.Z.İ.Məmmədov**

**Seminar müəllimi:** ____________ **m.N.A.Ağayev**

**Kafedra müdiri:** ____________ **dos.K.F.Mahmudov**

CamScanner ilə skan edilib